V

# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 72

Bakı şəhəri "21" sentyabr 2010 il

**"Vərəmlə mübarizə tədbirlərinin gücləndirilməsi barədə"**

Son illər ərzində respublikada vərəm xəstəliyi ilə mübarizə məqsədilə vərəmin aşkarlanması, müalicəsi və profilaktikası, bu sahədə fəaliyyət göstərən tibb müəssisələrin və laborator xidmətinin maddi-texniki bazasının gücləndirilməsi, xəstələrin spesifik dərman preparatları ilə təmin edilməsi istiqamətində müəyyən tədbirlər həyata keçirilmişdir.

Bununla belə vərəmlə mübarizə xidmətinin vəziyyətinin təhlili göstərmişdir ki, bu sahədə bir sıra nöqsanlar mövcuddur.

Qeyd olunanları nəzərə alaraq vərəmə qarşı mübarizə tədbirlərini gücləndirmək məqsədilə

## ƏMR EDİRƏM:

1. "Azərbaycan Respublikasında vərəmlə mübarizə üzrə Milli Strategiya (2011-2015-ci illər)" təsdiq edilsin (əlavə olunur).

2. Aparat rəhbəri Z.Mustafayevaya tapşırılsın:

2.1. 10 gün müddətində Qlobal Fondun Dərmanadavamllı Vərəmlə Mübarizə Layihəsinin Əlaqələndirmə Bürosu ilə birgə həyata keçirilən layihənin icra qrupunun yeni tərkibi barədə təklif təqdim edilsin;

2.2. İnformatika və statistika idarəsinin müdiri O.Axundovla və Elmi-tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru E.Məmmədbəyovla birgə 15 gün müddətində vərəmlə bağlı hesabat formalarına yenidən baxılaraq, onların Ümumdünya Səhiyyə

Təşkilatının tövsiyələrinə uyğunlaşdırılması və vərəmlə bağlı hesabatların dürüstləşdirilməsi təmin edilsin.

3. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadəyə tapşırılsın ki, vərəm xəstələrinin vahid elektron registrinin və məlumat bazasının tətbiqi təmin edilsin.

4. Respublikanın şəhər və rayonlarının tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın ki, vərəmlə mübarizə tədbirlərinin həyata keçirilməsi şəxsi nəzarətə götürülsün.

5. Əmrin icrasına nəzarət Nazir müavinləri Abbas Vəlibəyova və Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**